IQRO JURNALI , IQRO JOURNAL, ИКРО ЖУРНАЛИ
ISSN:2181-4341| wordlyknowledge.uz/index.php/iqro
Volume 22 Issue 02 IYUL 2026

MÜHARIBƏ MÖVZUSU ƏDƏBIYYAT KONTEKSTI ÇƏRÇIVƏSINDƏ

Ulduz Fərhad Qəhrəmanova
filologiya üzrə fəlsəfə doktoru,
Azərbaycan Dövlət Pedaqoji Universiteti,
"Ədbiyyat" kafedrasında dosent
ulduzkahraman1@gmail.com
Orcid İD: 0009-0003-4418-9319
Doi: https://doi.org/10.5281/zenodo.21273748

Annotasiya:
Məqalədə tədqiqatçı tərəfindən müharibə mövzulu əsərlərin növləri təhlil edilmişdir. Tədqiqat işində militarist əsərlər, psixoloji məqamlı əsərlər analiz edilmişdir. Həmçinin tədqiqatçı Qarabağ müharibəsini milli ədəbiyyatın problemlərindən biri kimi təhlil müstəvisinə gətirmişdir. Elmi təhlillərdən məlum olur ki, Qarabağ müharibəsi XX əsr Azərbaycan ədəbiyyatında milli yazıçılarımızın milli istiqlal mövzusuna çevrilmişdir. Milli meyarların və dövlətçilik ənənələrinin Qarabağ müharibəsi mövzulu ədəbiyyatımızın inkişaf xəttini təşkil etdiyini xüsusilə vurğulamışdır.
Açar sözlər: Qarabağ müharibəsi, milli ədəbiyyat, militarist əsərlər, psixoloji əsərlər

AÇAR SÖZLƏR: MÜHARIBƏ MÖVZUSU, MILITARIST ƏSƏRLƏR, PSIXOLOJI MƏQAMLı ƏSƏRLƏR, TƏNHALıQ FƏLSƏFSI

Abstract:
Works written on the theme of war are divided into 2 parts:
1. Works that describe and depict war in a naturalistic way. Such works are called militaristic works. That is: works that give an unadorned description of war, speak about the horrors of war in a simple, calm, restrained language, and show the realities of war are considered militaristic works. In militaristic works, the horrors of war, disfigured human faces, dismembered human bodies, and rotted and soiled human limbs are presented through the eyes of witnesses. For example: The first novel of the famous American writer William Faulkner, who was awarded the Nobel Prize in 1950, "Soldier's Award" (1926), tells the story of the bitter fate of a veteran who returned from war. Dos Passos' novel "Three Soldiers" (1921) is considered a militaristic work that gives a naturalistic description of the horrors of war.
2. Works that do not depict the war. In such works, the psychological state of people who saw the war is emphasized. That is, such works are works written based on what war witnesses and heroes saw and spoke about. That is, the psychological state of people who were not soldiers, did not participate in the war, but were closely connected with the hot events is clearly shown.
One of the aspects that determines realism is the principle of nationality. The principle of nationality is located in the national consciousness. The Karabakh war, as one of the problems of national literature, has a leading position among works on the theme of war. If we approach this principle, the Karabakh War has also become a theme of national independence for our national writers in the 20th century Azerbaijani literature. The tragic scenes of the war waged for the territorial integrity of Azerbaijan have also reached our national literature of the 20th century. The national writers representing modern Azerbaijani literature were united by national spirit, civic position, excitement, challenge, unity, and patriotic feelings. National criteria and statehood traditions form the development line of our literature on the theme of the Karabakh War.

Keywords: war theme, militaristic works, psychological works, philosophy of loneliness

Giriş: Müharibə dövrünün tarixi gerçəklikləri, müharibənin törətdiyi fəsadların insanların taleyinə və psixologiyasına təsiri ədəbiyyata təsirsiz ötüşmədi. Müharibə və onun insan taleyinə təsiri mövzusu ədəbiyyatın aparıcı hissəsi olubdur. Tarixə nəzər salsaq görərik ki, XX əsr dünya tarixində inqilablar, müharibələr, siyasi-ideoloji sistemlərin mübarizəsi, qarşıdurması dövrüdür. Müharibə insan iradəsinin sarsılması, olmazın əziyyətlər, fövqəladə əzablar deməkdir. Müharibə insanı vəhşiləşdirir. Azərbaycan və türk dünyasının tarixinə nəzər salanda da görə bilərik ki, dəfələrlə qədim türk obaları türklərdən təmizlənib. Türk xalqı hər dəfə milli soyqırıma məruz qalıb.

ABŞ-da müharibə mövzusundakı əsərlərin inkişafında 3 mərhələ var:

1. Klassik dövr: XX əsrin əvvəli və ortalarını əhatə edir.
2. Modernist dövr: ABŞ ədəbiyyatının ən məhsuldar dövrüdür. 1950-1970-ci illəri əhatə edir.
3. Postmodernist dövr: XX əsrin 70-ci illərindən bu günə kimi olan dövrü əhatə edir.

Amerika ədəbiyyatında müharibə mövzusunda yazılmış əsərlər XX-XXI əsrlərdə yaranmışdır. Çünkü bu dövr Dünya müharibələri dövrü idi. ABŞ ədəbiyyatı XXI əsrdə 2 cərəyan əsasında müharibə mövzulu əsərlər yazmağa başladı. Hansı ki bu iki cərəyan elmə təzadlı münasibət bəsləyirdi:

1.Ssientizm cərəyanı: Elmi tərənnnüm edirdi, elmi fetişləşdirirdi, onun nailiyyətlərini həddindən artıq şişirdərək bütün ictimai bəlaları elmlə müalicə etmək ideyası səciyyəvi idi.

2. Antissientist cərəyanı: Müasir burjua cəmiyyətinin bütün uğursuzluqlarını elmlə bağlamağa, elmin bəşəriyyət üçün böyük fəlakətlər mənbəyi olduğunu, törətdiyi ziyanların göstərməyə çalışırdılar.

Amerika milli ədəbiyyatının tarixi ilk dəfə Con Smitin "Virciniyanın çiçəklənən adaları və Yeni İngiltərənin tarixi" əsəri ilə 1624-cü ildən başlandığı qəbul edilib. XX əsrin əvvəlləri Amerika ədəbiyyatında realizmin təntənəsi dövrü idi. Həmin bu proses II Dünya müharibəsinə qədər davam etdi. II Dünya müharibəsindən sonra makkartizm hərəkatı ədəbiyyatın vüsətli inkişafını bir qədər ləngitdi. Amerika yazıçılarının müharibə əleyhinə yazdığı əsərlərdə mübariz əsgər obrazı yoxdur. ABŞ ədəbiyyatında silahı qoyub gedən əsgər müharibəyə öz narazılığını göstərmiş obrazlardır.

Əsas hissə: Azərbaycan ədəbiyyatında da müharibə mövzusundakı əsərləri aşağıdakı kimi dövrləşdirmişdir:

1. Klassik dövr
2. 1920-1980-ci illər sosrealizm ideologiyasının konteksti dövrü
3. 1980-ci illərdə Sovet rejimiin süqutu ərəfəsindən yeni müstəqillik mərhələsinin başlandığı dövr

ABŞ ədəbiyyatından fərqli olaraq, Azərbaycan ədəbiyyatında qələmə alınan Azərbaycan əsgəri tarixdən bu günə kimi Vətən uğrunda ölümə gedən döyüşçü kimi təqdim olunub. Bu əsgərlər nikbin əhval-ruhiyyədə Vətəninin müdafiəsinə sevgi ilə qalxan, təəssübkeşlik və gələcəyə ümid bəsləyən qəhrəmanlardır. Qarabağ müharibəsinin tarixinə və bügününə nəzər salınmış və göstərilmişdir ki, Qarabağ müharibəsi milli istiqlal mövzusuna çevrilmişdir. Ölkənin ərazi bütövlüyü uğrunda aparılan mübarizənin faciəli səhnələri Azərbaycan ədəbiyyatına gəlmişdir. Azərbaycan ədəbiyyatında müharibə mövzusunda yazılan əsərlər milli ruh, vətəndaşlıq mövqeyi, həyəcan, çağırış, birlik, vətənpərvərlik duyğusu birləşdirirdi. Milli meyarlar, dövlətçilik ənənələri müharibə mövzulu əsərlərdə tərənnüm edilirdi.

Məlumdur ki, müharibədə insan qəddarlaşır, çünki şərait özü qəddar və amansızdır. Müharibə şəraitinə düşən insan psixologiyasında insan və vicdan, insan və məhəbbət, insan və onun daxili konflikti müharibə mövzulu əsərlərin əsas predmetidir. "Günahkar insanlardır, cəmiyyətdir, yoxsa zəmanə? Axı dünyanın ilk cinayəti baş verəndə nə dövlət var idi, nə cəmiyyət. Cinayət edən də peyğəmbər övladı idi". (İbrahimova Vüsalə İlqar qızı, (2022), s. 68) "Sözü ilə özü uca olan adamlar Mələk-insanlardır. Mələklik uca sözlə xeyirxah əməlin sənətkarla onun şəxsiyyətinin harmonik vəhdətindədir. Bu harminik vəhdət pozulanda İblis və İblislik baş qaldırır". (İbrahimova Vüsalə İlqar qızı, (2022), s. 69)

Müharibə mövzusunda yazılmış əsərlər 2 qismə bölünür:

1. Müharibənin təsvirini, lövhələrini naturalistcəsinə verən əsərlər. Belə əsərlər militarist əsərlər adlanır. Yəni: müharibənin bəzəksiz təsvirini verən, müharibənin dəhşətlərindən sadə, sakit, təmkinli dillə danışan, müharibə həqiqətlərini göstərən əsərlər militarist əsərlər hesab edilir. Militarist əsərlərdə müharibənin dəhşətləri, eybəcərləşmiş insan sifətləri, parçalanmış insan bədənləri, çürümüş və torpağa qarışmış insan əzaları şahidlərin gözü ilə təqdim edilir. Məsələn: 1950-ci ildə Nobel mükafatına layiq görülən məhşur ABŞ yazıçısı Uilyam Folknerin ilk romanı olan "Əsgər mükafatı" (1926-cı ildə) əsəri müharibədən dönmüş veteranın acı taleyindən bəhs edilir. Dos Passos "Üç əsgər" (1921-ci ildə) adlı romanında müharibənin dəhşətlərinin naturalist təsvirini verən militarist əsərlər hesab edilir.

2. Müharibənin təsvir lövhələri verilməyən əsərlər. Belə əsərlərdə müharibə görən insanların psixolji durumu önə çəkilir. Yəni belə əsərlər müharibə şahidlərinin, qəhrəmanlarının gördükləri və danışdıqları əsasında yazılan əsərlərdir. Yəni hərbiçi olmayan, müharibədə iştirak etməyən, lakin qaynar hadisələrlə sıx bağlı olan insanların psixoloji durumu qabarıq göstərilir.

Ədəbiyyatda öz əksini tapan mövzulardan biri insan və onun tənhalığı problemidir. Tənhalıq fəlsəfəsi əslində cəmiyyət-fərd problemidir. Belə ki, tənhalığın kökündə, nüvəsində cəmiyyətin fərdi, yaxud fərdlərin bir-birini başa düşməməsi, anlaşılmazlığı dayanır. Fərdlə-cəmiyyət, fərdlərarası konflikt, ziddiyyət gizlin və açıq şəkildə tənhalığın kökündə dayanan məqamlardır. Amerika yazıçılarının müharibə əleyhinə yazılan əsərlərində mübariz əsgər obrazı yoxdur. Azərbaycan ədəbiyyatında isə II Dünya müharibəsi bütün janrlar- roman, şeir, poema, hekayə, dram üzrə əhatə ounub. Azərbaycan nəsrində müharibə haqqında ilk romanın müəllifi Əbülhəsən Ələkbərzadədir. Əbülhəsən Ələkbərzadə müəyyən döyüş təcrübəsi olmayan, hətta silah tutmağı bacarmayan azərbaycanlıların tədricən əsl döyüşçüyə çevrilməsi prosesini əks etdirmişdir. Əbülhəsənin ilk qələmə aldığı "Dostluq" qalası olan "müharibə" romanı nöqsansız deyildir.

Qarabağ müharibəsi milli ədəbiyyatın problemlərindən biri kimi müharibə mövzulu əsərlər arasında aparıcı mövqeyə malikdir. Realizmi şərtləndirən cəhətlərdən biri millilik prinsipidir. Millilik prinsipi milli şüurun içində yerləşir. Bu prinsiplə yanaşsaq Qarabağ müharibəsi də XX əsr Azərbaycan ədəbiyyatında milli yazıçılarımızın milli istiqlal mövzusuna çevrilmişdir. Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan müharibənin faciəli səhnələri XX əsr milli ədəbiyyatımıza da gəlmişdir. Müasir Azərbaycan ədəbiyyatını təmsil edən milli yazıçıları milli ruh, vətəndaşlıq mövqeyi, həyəcan, çağırış, birlik, vətənpərvərlik duyğuları birləşdirirdi. Milli meyarlar və dövlətçilik ənənələri Qarabağ müharibəsi mövzulu ədəbiyyatımızın inkişaf xəttini təşkil edir.

1930, 1967, 1988-ci ildən bu günə kimi davam edən Azərbaycana qarşı torpaq iddiası nəticəsində tarix boyu müharibələr baş qaldırmışdır. Rus ordusu Erməni terrorçu dəstələri ilə birləşərək Dağlıq Qarabağ ərazisində soyqırımlar törətmişlər. Müharibə dövrünün tarixi gerçəklikləri, müharibənin törətdiyi fəsadların insanların taleyinə və psixologiyasına təsiri də belə mövzular içərisində əks edilmişdir.

Müasir Azərbaycan ədəbiyyatı uzun illər bu həqiqətdən danışa bilməmişdi və Qarabağın başının üstünü düşmən yenidən almağa başladıqda bu həqiqətlərə yenidən qayıdışa ehtiyac

duyuldu. Ən çox şairlərdən M.Araz, X.R.Ulutürk, İsa İsmayılzadə, Z.Yaqub, Ə.Salahzadə Qarabağ mövzusunda əsərlər yaratmışdır. Azərbaycan torpaqlarını hissə-hissə qoparıb "Böyük Ermənistan" yaratmaq iddiasına düşən erməni və rus şovinistlərinin azərbaycanlılara qarşı davamlı surətdə irəli sürdüyü torpaq iddialarının və öz niyyətlərinə çatmaq üçün həyata keçirdikləri etnik təmizləmə və soyqırım siyasətinin növbəti təzahürü Qarabağın işğalıdır. 20 Yanvar, Xocalı qurbanlarının fəryadı, itirilmiş torpaqlarımızın qaytarılması uğrunda döyüşə çağırış ruhu aşılamaq, tarixi faktlar, əsir və girovluqda olmuş şahidlərin xatirələri, MTN-nin arxiv materialları əsasında yazılan müharibə gerçəklikləri və s. Qarabağ müharibəsi mövzusunun aparıcı istiqamətlərinə çevrildi.

Təbii ki, Qarabağ faciəsinin tarixi səbəbləri, tarixin ibrət dərsləri, keşməkeşlərdən keçmiş bir millətin ruhi-mənəvi iztirabları, itirilmiş torpaqlarımızın taleyi hər bir vətənpərvər insanı düşündürən məsələdir. Qarabağ mövzusuna aid əsərlərin qəhrəmanlarının taleyi vətəni ilə bağlıdır. Belə ki, bu qəhrəmanlar vətənin içindədirlər, onlar tarixi situasiyanın gerçəkliyini duyan qəhrəmanlardır. Sənətkar tarixi faktlardan arqumentlər gətirməklə oxucularını düşündürməyi bacarır, soydaşlarını tarixin verdiyi dərslərdən nəticə çıxarmağa çağırır. Bu yazıçılar mədəniyyətimizi, milli-mənəvi dəyərlərimizi təcavüz edən erməni faşistlərinə musiqimizi, tətbiqi sənət nümunələrimizi, xalça-xalılarımızı, tarı və kamançanı, qara zurnanı mənim seçməklə "mənəviyyatımızı xəncərlədilər" deyirənlərə sanki tarixin ibrət dərsini verirdilər.

Nəticə: Müasir Azərbaycan ədəbiyyatına nəzər salsaq görərik ki, Qarabağ müharibəsi mövzusu, Ermənistanın Azərbaycana qarşı başladığı işğalçılıq müharibəsi nəticəsində doğma yurdundan didərgin salınmış, qaçqına çevrilmiş bir milyondan çox talesiz insanların ümumiləşdirilmiş obrazları daha çox hekayə janrının timsalında ümumiləşdirilmişdir. Didərginlik mövzusu acınacaqlı və müdhiş səciyyəsi ilə soydaşlarımızın köçkünlük, qaçqınlıq həyatı, didərginlik ömrü, məişəti bütün reallığı ilə, çılpaqlığı ilə oxucunu təsirləndirib, kədərləndirmişdir.

Bu milli ruhlu yazıçıların əsərləri ilə tanış olanda Azərbaycan xalqının vətən yolunda şəhid olmağı özünə şərəf bilməsini görmək mümkündür. Bu əsərlərdə Vətənin, torpağın, yaddaşın ən üstün yerində şəhid adının yazılacağı inam ilə ölümün üstünə yeriməyinin şahidi oluruq.

Ədəbiyyat:

1. Xalid Əlimirzəyev, (2008) "Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları", Bakı
2. İbrahimova Vüsalə İlqar qızı, (2022) fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim etdiyi "ABŞ VƏ AZƏRBAYCAN NƏSRİNDƏ MÜHARİBƏ MÖVZUSUNDA ƏSƏRLƏRİN JANR XÜSUSİYYƏTLƏRİ" adlı dissertasiya, Bakı
3. Mir Cəlal, Pənah Xəlilov,(2005) "Ədəbiyyatşünaslığın əsasları", Bakı, Çaşıoğlu
4. Məmməd Əliyev, (2000) "Ədəbiyyat nəzəriyyəsinin əsasları", Bakı
5. Məhəmmədəli Mustafayev, (2021) Ədəbiyyat nəzəriyyəsi, Bakı
6. Nizaməddin Şəmsizadə, (2012) "Ədəbiyyat nəzəriyyəsi", Bakı
7. Rafiq Yusifoğlu, (2001) "Ədəbiyyatşünaslığın əsasları", Bakı
8. Rəhim Əliyev, (2008) "Ədəbiyyat nəzəriyyəsi", Bakı